

Respublikamızda işinə bu dərəcədə bağlı adamlar azdır. Çox istərdik ki, hamı Nazim müəllim kimi könül verdiyi sənəti bu qədər sevsin, tutduğu vəzifəyə məsuliyyətlə yanaşsın, ətrafındakılara qarşı diqqətli olsun, nəvaziş göstərsin...

# Həyatın mənası

**Təbii ki, söhbət Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktoru Nazim Fərəməzovdan gedir. Nazim müəllimi çoxdan tanıyıram. Onun yüksək insani keyfiyyətlərə mənsub olduğunun, ailəsinə bağlılığının, tabeliyindəkilərə qayğı və diqqət göstərdiyinin, əməkdaşlarının ona yalnız bir rəhbər kimi deyil, həm də ata, qardaş tək yanaşdıqlarının dəfələrlə şahidi olmuşam.**

Əlbəttə, bu insani keyfiyyətlər hələ uşaqlıqdan cənub bölgəsində xüsusi ad-sanı, hörməti, nüfuzu ilə seçilən Fərəməzovlar ailəsində formalaşıb. Qeyrət, qürur, ləyaqət, abır-həya, böyüyə hörmət, kiçiyə məhəbbət, ədalət bu ocağın daimi "sakinləri olub".

Surətulla kişi müxtəlif məsul vəzifələrdə çalışıb. Məryəm ana evdar qadın olsa da ərinin uğurlarında müstəsna rol oynayıb. Evdə boya-başa çatan 9 övladın-Minarə, Nazim, Rasim, Tarizə, Şahin, Kazım, Əlövsət, Əbülfət və Azərin tərbiyəsində, savad almasında hər ikisi eyni dərəcədə zəhmət çəkib.

Zəhmətinin barını dərməyə gəlincə burada qismət Məryəm ananın üzünə daha çox gülüb. İndi o, nəvə-nəticəsinin də xoş gününə, toy-düyününə həm özünün, həm də həyatdən vaxtsız köçən Surətulla kişinin əvəzindən "ağsaqqallıq" edir...

Yaş etibarı ilə oğulların ən böyüyü olduğundan belə görünür ki, indi də estafeti Nazim müəllim daşıyasıdır. Qardaşı Şahin müəllimin Nazim müəllimə xitabən "ata" deyə müraciət etməsi nə qədər də xoşdur.

Fərəməzov Nazim Surətulla oğlu 1948-ci il avqustun 25-də Astara rayonunun Təngərüd kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) kitabxanaçılıq fakültəsini bitirib.

Əmək fəaliyyətinə 1970-ci il aprelin 8-dən başlayıb. Astara Rayon Mərkəzləşdirilmiş Kitabxana Sisteminin direktorudur. N.Fərəməzovun bu etimadı nə dərəcədə ləyaqətlə doğrultduğuna əmin olmaq üçün son ilin göstəricilərinə nəzər yetirmək də kifayətdir. Ötən illər kimi 2010-cu il də uğurla başa çatdırılmışdır.

Qeyd edək ki, MKS 1 Mərkəzi rayon, 1 şəhər, 1 Gənclər və 76 kənd kitabxana filiallarından ibarət olan şəbəkəni özünə birləşdirir. Əhaliyə kitabxana xidməti MKS-in struktur, bölmə, şöbə və kənd kitabxanalarının vahid illik iş, tədbirlər və təqvim planları əsasında keçirilir.

2010-cu ilin hesabat ilində rayon əhalisinə göstərilən kitabxana xidmətinin səviyyəsi yüksəldilmiş, Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin qarşıya qoyulmuş vəzifələrinin yerinə yetirilməsi üçün əhaliyə göstərilən xidmət işi xeyli yaxşılaşdırılmışdır.

Astara rayon MKS-in mərkəzi və kənd kitabxana filiallarında 2010-cu hesabat ilində keçirilən

kütləvi tədbirlərin sayının və keyfiyyətinin yüksəlməsinə nail olaraq müxtəlif mövzularda tədbirlər keçirilmişdir.

Bu tədbirləri həyata keçirmək ilk növbədə rayon icra hakimiyyəti, pedaqoji kollektivlər, kənd ərazi icra nümayəndələri, bələdiyyələrlə və rayonumuzun müharibə və əmək veteranları ilə əlaqə saxlanılmış, bilavasitə onların köməyindən istifadə olunmuşdur.

Astara rayon MKS-in mərkəzi və kənd kitabxana filiallarında "Məlumat günü", "Mütəxəssis günü" fərdi xidmətinin təşkilinə diqqət xeyli artırılmışdır.

Ənənəyə uyğun olaraq mərkəzi və kənd kitabxana filiallarında əlamətdar və tarixi günlər, görkəmli şəxsiyyətlərin, yazıçı və şairlərin yubileylərinə aid müxtəlif kütləvi tədbirlər yenə də yüksək səviyyədə keçirilmişdir.

"Tariximizin qan yaddaşı", "Xocalı soyqırımı bəşəri faciədir", "Elimizə bahar gəlir", "Böyük Qələbə haqqında həqiqətlər", "Şərqdə ilk müsəlman demokratik dövlət", "Qurtuluş günü xalqımızın xilas günüdür", "Təbiəti qorumaq Vətəni qorumaq deməkdir", "Dövlət müstəqilliyimiz əbədidir", "Ailə və nigah" və digər başlıqlı tədbirlər bu qəbildəndir.

Bütövlükdə rayon üzrə 512 müxtəlif səpkili tədbir hazırlanmışdır.

Kitabxanaya oxucu axınını gücləndirmək, əmək intizamını möhkəmləndirmək üçün həyata keçirilən tədbirlər də öz dolğunluğu ilə fərqlənir. Qazanılan uğurlar kollektivin düzgün yolda olduğunu göstərir.

Rayon üzrə ümumi kitab fondu 421573 nüsxədir. Bu ədəbiyyatların 26809 nüsxəsi mərkəzi rayon kitabxanasına, 394764 nüsxəsi isə kitabxana filiallarına məxsusdur.

Ötən illərlə müqayisədə oxucuların fəallığı da xeyli artmışdır. Hesabat dövrü ərzində kitabxanalara 30584 nəfər müraciət etmişdir. Onların 1100 nəfəri mərkəzi kitabxananın, 29484 nəfəri isə kənd və qəsəbə kitabxanalarının xidmətindən yararlanmışdır.

Mərkəzi kitabxana və filiallar üzrə kitab verilişi müvafiq surətdə 29116 və 471063 nüsxəyə bərabər olmuşdur.

İşlərin təhlili göstərir ki, MKS-in KAA və vahid fond şöbəsində sistemdaxili mübadilədən səmərəli istifadə edilmişdir. Bu məqsədlə zəngin kitab fonduna malik filiallardan 1 saylı Ərçivan, 2 saylı Suparibağ, 13 saylı Səncərədi, 4 saylı Kolatan, 43 saylı Kələdəhnə, 11 saylı Şüvi və digər kənd filial kitabxanaları sistemdaxili mübadiləyə cəlb olunmuşdur.

**Bu və digər kitabxanalarda hərbi-vətənpərvərlik işi də yaxşı təşkil edilmişdir. Fərəh doğuran cəhət odur ki, "Azərbaycan", "Xalq qəzeti", "Respublika", "Mədəniyyət", "Ülfət", "Vışka" qəzetləri, habelə "Mədəni-maarif", "Füyuzat", "Göy qurşağı" və digər jurnallar Astara Rayon MKS-in səmərəli fəaliyyəti barədə geniş materiallar dərc etmiş, qabaqcıl təcrübəni Respublika üzrə yaymışlar. Bu da öz növbəsində kitabxanaçıları daha yaxşı çalışmağa ruhlandırmışdır...**

**• Tural**